# "Pəncəli aslan"



**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri**

***Bakı küçələrindən birində sübh tezdən tapılmış kişi meyiti tanınmaz hala düşmüşdü. Məhkəmə tibb ekspertizası ölümün 'bərk və küt alətlə vurulmuş, həyat üçün təhlükəli olan ağır bədən xəsarətləri" nəticəsində baş verdiyini müəyyən etmişdi. Ekspertin rəyindən bəlli olur ki, mərhum ölənəcən döyülmüşdür.***

***Buna bənzər ikinci kişi meyiti bir həftə keçməmiş birinci cinayət hadisəsinin baş verdiyi gün yerdən iki bina aralıda aşkar edildi. Meyitin bədənində də eyni zədələr vardı: qol qabırğası, əl-ayağı sındırılmışdı. Qətl, qarət məqsədi güdmürdü.***

Belə ki, mərhumun cibindəki 500 manata və bahalı qol saatına toxunulmamışdı. İstintaqı həyata keçirən tədqiqatçı müəyyən etmişdir ki, hadisə baş verən axşamı mərhum iş yerində təşkil edilmiş banketdə iştirak etmişdi.

Banketdən sonra onu küçədə hündürboy, suyuşirin bir qızla söhbət etdiyini görənlər də olmuşdu. Lakin sonra hara getdiklərini bilən yox idi. Onu da gecə yarısı qəddarcasına döyə-döyə öldürmüşdülər.

***Hər iki cinayət hadisəsində eyni dəst-xətt izlənilirdi.***

***Bir həftə daha sonra şəhərin qonşu məhəllələrində buna bənzər daha iki qətl hadisəsi baş verdikdən sonra bu dörd hadisə bir cinayət işində birləşdirildi.***

Beşinci oxşar cinayət hadisəsi də eyni bir ərazidə gecə yarısı baş verdi. Lakin bu dəfə polis hadisədən tez xəbər tutdu. Gecə təxminən üçün yarısında həyətdəki dalaşma səsinə oyanmış yaşlı qadın polisə zəng vurmuşdu. Polis özünü deyilmiş ünvana çatdırmağa macal tapmamış cinayətkar artıq aradan çıxmağa müvəffəq olmuşdu.

Əzişdirilmiş kişilərdən biri ağrıdan zarıyır, o biri isə ağızburnunun qanını silirdi.

Hər ikisi xəstəxanaya aparılır. Səhəri gün nisbətən yüngül bədən xəsarəti almış zərərçəkən polisə verdiyi izahatında bildirdi ki, dostu ilə gecə vaxtı bir qızla tanış olmuşdular.

Hündürboy, qamətli, olduqca yaraşıqlı qız idi. Lap ingilis madonnasına oxşayırdı. Yeni tanışımız naz eləmədi. Gecəni bizimlə keçirmək üçün üç yüz manata razılaşdıq. Xavər (qız özünü bu cür adlandırmışdı) onları öz evinə dəvət etdi, dedi ki, tək yaşayır və istirahət üçün hər cür şəraiti var.

Onlar yemək-içmək götürüb getdilər. Yolda zarafatlaşır, gülüşürdülər. Zərərçəkən arada cuşa gəlib qızın "sarğısına" əlini çəkdi. "Təbiidir ki, 300 manatı ....... eləməyə verməmişik ki..." Lakin qız sanki bu tumara bənd imiş. "Sarğı həvəskarının" qabaq üç dişini sındırmış birinci qəfil zərbədən sonra qız əlləri, ayaqları ilə onları şil-küt eləməyə başladı. İfadə verən zərərçəkən kiminlə rastlaşdığını başa düşdüyü üçün müqavimət göstərmədiyindən az kötək yedi, ikinci kişi isə "xoruzlandığına" görə ağzındakı dişlərin hamısını udmalı oldu, üstəlik də beş-altı qabırğası sındırıldı. "Zalımın balası madyan kimi şıllaq atırdı. Elə bir bədənimə əli ilə yox, ağır çəkiclə zərbələr vururdu..."

***Polis əməkdaşları ikinci zərərçəkəni xəstəxanada dindirməli oldular. Biçarənin ağzında dişi qalmadığından gücə danışırdı. O, qısaca olaraq birinci zərərçəkənin ifadələrini təsdiq etdi.***

***Cinayətkarın əlamətləri də, cinsi də artıq məlum idi. Həmçinin o da əminlik hasil etdi ki, cani qız karate və sambo idman növlərinin "elminə" incədən-incəyə mükəmməl bələddir, özü də rəhm nə olduğunu bilmir.***

***Girinə keçən kişiləri qəddarcasına döyə-döyə öldürürdü.***



Mədinə Gözəlovanın (istintaq materiallarında qızın əsl adı belə göstərilir) öhdəsindən gəlmək üçün möhkəm bədəni, əli dəyənəkli, beli tapançalı dörd polis əməkdaşı yarım saatdan çox əlbəyaxa çarpışmalı oldu. Qız onlardan birinin üç dişini, o birinin iki qabırğasını, üçüncünün biləyini, o birinin isə üç qabırğasını sındırdıqdan sonra aradan çıxa bilərdi. Lakin onun niyyəti başqa idi. O, açıq-aşkar polislərin işini bitirmək istəyirdi. Əgər bu zaman düz gicgahına dəyən sərrast dəyənək zərbəsi olmasaydı bu çarpışmanın sonluğunun necə bitəcəyini əvvəlcədən söyləmək çətin idi. Sonradan dindirilən iki qabırğası sınmış polis əməkdaşı sıxıla-sıxıla demişdi: "Bu dişi yırtığının öhdəsindən silahdan başqa ayrı vasitə ilə gəlmək mümkün deyil..."

Qız müstəntiq otağında elə ilk dindirmədə heç nəyi gizlətmədən ətraflı ifadə verməyə başladı. Aram-aram sakit səslə haqlı olduğuna tam inamla elə şeylər danışırdı ki, istər müstəntiqin, istərsə də onu tələş içində dindəyənlərin tükləri biz-biz olurdu.

...O, on üç yaşında olarkən 18 yaşlı yetkin qız kimi görünürdü. Dolu bədənli, yaşıdlarına nisbətən boyu hündür, sifəti cazibədar idi. Şəhərin məşhur idman bazası olan "Dinamo" məşq idman kompleksində voleybol üzrə məşqlərə gedirdi. Və voleybol məşqçisi qıza böyük idman gələcəyi vəd edirdi. Onu birinci tovlayan, onun namusuna təcavüz edən də elə bu məşqçinin özü oldu. Onu evinə aparıb xeyli söhbətdən sonra yemək-içmək təşkil etdi. Sonrası isə qızın güclə yadına gəlir. Yadında qalan yalnız lüm-lüt soyundurulduğu, anlaşılmaz ağrılar, ürək bulanması, iyrənclik duyğusu idi. Elə bil onu çirkab gölməçəsinə soxub-çıxarmışdılar və bu çirkabı heç nə ilə yuyub-təmizləmək mümkün deyildi. Bu hadisədən sonra bir daha məşqlərə getmədi və voleybola əlvida deməli oldu.

***İkinci dəfə onun namusuna bir sinifdə oxuduğu oğlanlar sataşmışdılar. Dörd nəfər birdən. Zor gücünə, döyə-döyə, işgəncə verə-verə, alçalda-alçalda. O vaxt düşdüyü köməksizlik hissi onun kişilərə qarşı olan nifrətini daha da alovlandırdı, intiqam hissini gücləndirdi.***

***Son hadisədən sonra qız karate idman bölməsində məşq etməyə qərar verdi. Müntəzəm surətdə gedib gəldi. Lakin bunun yalnız adı "karate" idi. Təlimatçı Əfqanıstanda xüsusi təyinatlı dəstənin keçmiş zabiti onlara gözəl, şixron zərbələr, hərəkətlər deyil, bir tutarlı zərbə ilə rəqibi şikəst etməyin sirlərini öyrədirdi. Məşqçi öyrədirdi ki, yarışlarda çıxış edən karateçilər əslində heç nə nümayiş etdirmirlər. Kino aktyorlar kimi sadəcə etüd göstərirlər.***

O, öyrədirdi ki, "zərbə gözəl, baxışlı deyil, səmərəli olmalıdır. Döyüş tamaşa deyil, ölüm-dirim vuruşudur. Rəqibi məhv etmək üçünsə əvvəlcə onu köməksiz vəziyyətə salmaq, şikəst eləmək lazımdır. İnsan orqanizmi biz düşündüyümüzdən də möhkəmdir. Lakin onun zəif nöqtələri də mövcuddur. İlk öncə bu nöqtələrin yerini dəqiq öyrənmək və məhz ora zərbə endirmək lazımdır..."

Sonralar Mədinə başqa idman döyüşü növlərinə də yiyələndi: sambo, dzyu-do, ayki-do, ciu-citsi...

Sambo bölməsindən onu qəddarlığına görə qovdular. Məşq vaxtı oğlanlardan birinin biləyini sındırmışdı. Bunu qəsdlə etmişdi. Ən ürəkli oğlanlar da ondan çəkinib-qorxur, onunla məşq döyüşü keçirtmək istəmirdilər. Öz aralarında onu "ifritə" adlandırırdılar...

Mədinə birinci kişini təsadüfən öldürdü. Bu hadisə gecə vaxtı yaşadığı evin yaxınlığında olmuşdu.

Dazbaş, balacaboy, 40-45 yaşlarında kişiydi, ağzından araq iyi gəlirdi. Arxadan yaxınlaşıb qızı qucaqlamaq istədi. Ola bilsin ki, kiməsə oxşatmışdı.

Mədinə bunu aydınlaşdırmağa heç çalışmadı da. Kişini qamarlayıb başı üstündən yerə çırpdı. Bununla ürəyi soymadı, kişinin qasığına güclü zərbə ilişdirməklə onun həyatına son qoymuş oldu. Bu onun birinci qurbanı idi. Adam xüsusilə kişi tayfasından olanları öldürmək ona gözləmədiyi bir həzz verirdi. Bundan sonra özü "kişi ovu"na çıxırdı.

Gecələr tək-tənha gəzməyə yollanır, rast gəldiyi kişilərə qaşgöz eləyir və toruna düşənləri qaranlıq küçələrə çəkib bir bəhanə ilə şil-küt etməyə başlayırdı. Gecə gəzintiləri zamanı özünün şikarını pusan pələng kimi hiss edir, öz gücündən, yenilməzliyindən xüsusi həzz alırdı.

O, hətta silahlı kişilərdən də qorxmurdu, çünki məşqlərdə dəmirə dönmüş əlləri, ayaqları daha etibarlı və kəsərli silah idi. Başlıcası isə o, öz düşmənlərindən onun dönə-dönə alçaltmış, ona minbir cismani və mənəvi əzablar vermiş kişi cinsindən intiqam alırdı.

***...Elə ilk dindirmədən sonra müstəntiqdə onun ruhi vəziyyəti haqda şübhələr oyandı. Məhkəmə-tibb ekspertizası bu şübhələri təsdiq etdi. Diaqnoz isə belə oldu: 'Kəskinləşmə mərhələsində olan şizofreniya, seks zəminində təqib olunma maniyası".***

***Ağır Cinayətlər Üzrə Məhkəmə onu təqsirli bilərək qapalı ruhi xəstəliklər xəstəxanasında məcburi müalicə cəzasına təyin etdi. Mütəxəssislər bilir ki, bu cür xəstəxanalara düşmək asan, oradan çıxmaq isə çətindən çətindir, bəzən də qeyri-mümkün olur.***

***Məhkum olunarkən isə Mədinənin cəmi iyirmi bir yaşı vardı.***

***Məhkəmə zamanı tərk etməzdən əvvəl düşünürsən ki, bu zavallı layiq olduğu cəza ilə birgə həm də hansısa namərdlərin əvəzinə də cəza çəkməli olacaq. Özü də sonu görünməyən cəza!..***



***Mədinə bunu aydınlaşdırmağa heç çalışmadı da. Kişini qamarlayıb başı üstündən yerə çırpdı. Bununla ürəyi soymadı, kişinin qasığına güclü zərbə ilişdirməklə onun həyatına son qoymuş oldu. Bu onun birinci qurbanı idi. Adam xüsusilə kişi tayfasından olanları öldürmək ona gözləmədiyi bir həzz verirdi. Bundan sonra özü "kişi ovu"na çıxırdı.***

***Gecələr tək-tənha gəzməyə yollanır, rast gəldiyi kişilərə qaş-göz eləyir və toruna düşənləri qaranlıq küçələrə çəkib bir bəhanə ilə şil-küt etməyə başlayırdı. Gecə gəzintiləri zamanı özünün şikarını pusan pələng kimi hiss edir, öz gücündən, yenilməzliyindən xüsusi həzz alırdı...***